# Qərbi Azərbaycanın ədəbi mühiti “Ədəbiyyat qəzeti”ndə

**Ədəbiyyatı sevən hər kəsin böyük maraqla oxuduğu “Ədəbiyyat qəzeti”nin 2023-cü ildə son nömrəsi Qərbi Azərbaycan İcması ilə birgə layihə əsasında xüsusi buraxılış kimi nəşr olunub.**

Böyük Turan ideyasının mədəni xəyaldan siyasi gerçəkliyə çevrildiyi hazırkı dönəmdə həyatımızın mühüm bir mərhələsi yaşanır. Bu, Qərbi Azərbaycan mərhələsidir. Qəzetin xüsusi buraxılışının bütünlüklə “Qərbi Azərbaycan” adlanması ölkə başçısı İlham Əliyevin Qayıdış Konsepsiyasının həyata keçirilməsində hər bir düşüncə adamının, ziyalının da payı olmasını özündə ehtiva edir. Qəzetin hər səhifəsindən bu fikir qırmızı xətlə keçir ki, möhtərəm Prezidentimizin Qərbi Azərbaycan məsələsi, əzəli torpaqlara qayıdışla bağlı çağırışlar səsləndirməsinin əsasında yeni milli təfəkkürün, təzələnən diskursun və məfkurə dalğasının düşüncədə və əməldə ifadəsini görmək istəyi dayanır.

Baş redaktor Azər Turan “Ədəbiyyatda həsrət mədəniyyət hadisəsidir, yaxud yeni tariximizin Qərbi Azərbaycan mərhələsi” adlı məqaləsində yazır: “Qarşıdan Azərbaycanda prezident seçkiləri gəlir. Milli tariximizin ən məsul dövründəyik. Budəfəki seçki fevral ayına təsadüf edəcək – Turan düşüncəsini ilk dəfə siyasi gündəmə gətirən Əli bəy Hüseynzadənin doğum tarixinə. Seçkilər ərəfəsində böyük mütəfəkkirin 160 yaşı tamam olacaq... Turan romantik idealları gerçəkləşdirməklə hasilə gəlir. Turan məfkurəsinin qurucusu Əli bəy Hüseynzadənin 170 illik yubileyinə – Bakıdan İstanbula XXI yüzilin mədəniyyət yoluyla – Zəngəzur yoluyla getmək hamımızın arzusudur...”


Ədəbiyyat QƏZETİ

“Ədəbiyyat qəzeti”nin Qərbi Azərbaycan İcması ilə birgə layihəsi:
“Qərbi Azərbaycan” xüsusi buraxılışı

Prezident İlham Əliyevin Qərbi Azərbaycana Qayıdış Konsepsiyası: məsuliyyət və vəzifələrimiz

İrəvanda qalan uşaq

Xüsusi buraxılışda Elnarə Akimovanın “Prezident İlham Əliyevin Qərbi Azərbaycana qayıdış konsepsiyası: məsuliyyətimiz və vəzifələrimiz”, Alqış Həsənoğlunun “Prezident mütləq deyəcək: “Birinci kəndimiz Nüvədi!”, Səyyad Aranın “İrəvana gedən yollar” (romandan parça), Məmməd Orucun “Göyçədən Türk dünyasına (Aşıq Ələsgər haqqında)”, Xalq şairi Vahid Əzizin “Dərələyəz” (poemadan parça), İftixar Piriyevin “Qədim, fədakar sənət ocağı – İrəvan Dövlət Azərbaycan Dram teatrı”, Paşa Qəlbinurun “İrəvanda qalan uşaq” (esse), Fəridə Səfiyevanın “Milli varlığına bağlı alim – Heydər Hüseynov”, Mətanət Vahidin “Mirəli Seyidovun mifoloji tədqiqatları çağdaşlıq müstəvisində”, Kənan Hacının “Ədəbiyyatımızda “köç” ağrısı (Fərman Kərimzadə, Məmməd Oruc və Hidayətin əsərləri əsasında) və digərlərinin maraqlı yazıları yer alıb. Bədii nümunələrə də geniş yer verilib.

**Ə.NƏCƏFXANLI**
**XQ**

Xalq qəzeti.- 2024.- 8 yanvar, № 001.- S.10.